# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

31 yanvar 2019-cu il

Cümə axşamı

№ 4 (3419)

Qiymәti 40 qәpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV ŞƏHİD AİLƏLƏRİ İLƏ GÖRÜŞÜB



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yanvarın 28-də Prezident Sarayında şəhid ailələri ilə görüşüblər.

Şəhid ailələrinin nümayəndələrinə dərin hörmətini ifadə edən Prezident İlham Əliyev şəhidlərimizə Allahdan rəhmət dilədi, onların torpaq, Vətən uğrunda həlak olaraq şəhidlik zirvəsinə yüksəldiyini dedi. 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində minlərlə şəhid verdiyimizi, 1 milyondan çox insanın məcburi köçkünə çevrildiyini deyən dövlətimizin başçısı o dövrdə müşahidə olunan hakimiyyətsizlik nəticəsində torpaqlarımızın bir hissəsinin işğal olunduğunu bildirdi.

Bu gün Azərbaycanın güclü hərbi potensialı, dünyadakı nüfuzu, artan imkanları sayəsində danışıqlar prosesində mövqelərimizin kifayət qədər gücləndiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, bizim üçün ölkəmizin ərazi bütövlüyünün bərpası ən vacib məsələdir və münaqişə ilə bağlı qəbul olunan çoxsaylı qətnamələr ölkəmizin ərazi bütövlüyünə beynəlxalq dəstəyi təmin edib. “Azərbaycan xalqı və dövləti heç vaxt bu işğalla barışmayacaq”,- deyən dövlətimizin başçısı son illərdə ordu quruculuğu istiqamətində böyük işlərin görüldüyünü bildirdi, müharibədən əziyyət çəkən insanların qayğı ilə əhatə olunduğunu dedi. Son illərdə məcburi köçkünlər üçün 100-dən çox qəsəbənin tikildiyini, bu kateqoriyadan olan insanlara yeni mənzillərin verildiyini və bu prosesin bu il də davam etdiriləcəyini deyən Prezident İlham Əliyev şəhid ailələrinin də ev və avtomobillərlə təmin edildiyini diqqətə çatdırdı.

***Dövlətimizin başçısı görüşdəki çıxışında dedi:***

***-Mənə verilən məlumata görə, üç mindən çox şəhid ailəsi 11 min manatı alıb. Ancaq bu proses zamanı məlum oldu ki, vaxtilə müavinəti alan vətəndaşların aldıqları məbləğ bu gün verilən məbləğlə üst-üstə düşmür. Yəni, o illərdə - 1990-cı illərin əvvəllərində rəqəm böyük olsa da, - o vaxt 50 min manat nəzərdə tutulurdu, - ancaq o vaxtın 50 min manatı bu günün 11 min manatı ilə heç də müqayisə oluna bilməz. Mən bu məsələ ilə bağlı ictimaiyyətə öz fikrimi bildirdim. Bildirdim ki, bu məsələ ciddi araşdırılmalıdır və burada iki əsas amil üstünlük təşkil etməlidir: qanun və ədalət. Bir tərəfdən, vaxtilə bu müavinəti alan vətəndaşlar bu siyahıya daxil edilməməlidir, bunu qanun və qaydalar tələb edir. Digər tərəfdən, biz bütün məsələləri ədalətli həll etməliyik, bütün məsələlərə sosial ədalət prizmasından yanaşmalıyıq. Bunu nəzərə alaraq, mən bu gün yeni fərman imzaladım. Bu fərman əsasında 11 min manatı alacaq vətəndaşların sayı 2725 nəfər artırıldı. Onların içərisində təbii ki, vaxtilə müavinəti az məbləğdə alan vətəndaşlardır və ümumiyyətlə, siyahıya düşməyən daxili işlər orqanları şəhid ailələrinin nümayəndələridir, onların da sayı 460-dan çoxdur...***

Sonra dövlətimizin başçısı birdəfəlik ödəməni almaq üçün istifadə olunan plastik kartları şəhid hərbi qulluqçularının vərəsələrinə təqdim etdi.



Daha sonra şəhid anası İbadət Əliyeva, şəhid atası Şirvan Nüsrətov, şəhid həyat yoldaşı Vərziyar Əliyeva və şəhid vərəsəsi Sevinc Quluzadə onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Xalqa xidmət etməyin onun üçün böyük fərəh olduğunu deyən dövlətimizin başçısı bu gün ölkəmizin sürətlə inkişaf etdiyini, uğurlu iqtisadi siyasət nəticəsində Azərbaycanda böyük sosial layihələrin icra olunduğunu vurğuladı. Bildirdi ki, əsas məqsəd vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılmasıdır. Bu istiqamətdə icra edilən proqramlardan danışan Prezident İlham Əliyev ölkəmizin hərbi potensialının da gücləndirildiyini, bu məqsədlər üçün böyük vəsaitin ayrıldığını dedi, ötən il Bakıda keçirilən iki hərbi paradın ölkəmizin qüdrətini bir daha nümayiş etdirdiyini bildirdi. Dövlətimizin başçısı Cocuq Mərcanlının bizim əyilməz iradəmizin rəmzinə çevrildiyini, onun yenidən qurulmasının hərbi qələbə nəticəsində mümkün olduğunu vurğuladı. ***“Aprel döyüşləri bütün dünyaya göstərdi ki, Azərbaycan güclü dövlətdir, ölkəmizin güclü ordusu var və xalqımız heç vaxt işğalla barışmayacaq”,- deyən Prezident İlham Əliyev şəhid ailələrinə Vətən üçün gözəl övladlar yetişdirdiklərinə görə təşəkkür etdi, xalqımızın şəhidlərlə fəxr etdiyini, onların bizim ürəyimizdə əbədi yaşayacağını bildirdi. Sonda xatirə şəkli çəkdirildi.***

***Yanvarın 24-də Prezident İlham Əliyev Bakının Sabunçu rayonunun Pirşağı qəsəbəsində Kənd Təsərrüfatı Nazirliyinin əsaslı şəkildə yenidən qurulan Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun, "Kartof və tərəvəz toxumları istehsalı” kompleksinin açılışında iştirak edib.***

# İNKİŞAFIN, SABİTLİYİN AZƏRBAYCAN NÜMUNƏSİ

**Yanvarın 29-da “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının yekunlarına həsr olunan konfrans keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.**

**Dövlətimizin başçısı konfransda giriş nitqi söyləyib.**

Prezident İlham Əliyev qeyd edib ki, regionların sosial-iqtisadi inkişafına dair beş il bundan əvvəl qəbul edilmiş üçüncü Dövlət Proqramının icrası təmin edilib. Bu proqramın çox böyük əhəmiyyəti var. O, imkan yaradıb ki, əvvəlki illərdə aparılan islahatlara, görülən işlərə yeni təkan verilsin. Ümumiyyətlə, Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı proqramlarının qəbul edilməsi ölkə rəhbərimizin 2003-cü ildə prezident seçkiləri ərəfəsində verdiyi vədlərindən biri idi. 2004-cü ilin fevral ayında birinci proqram qəbul olunub və buna görə də görülmüş işlər haqqında danışanda, son 15 il ərzində yerinə yetirilmiş işlərə nəzər salınmalıdır.

**Beləliklə, son 15 il ərzində Azərbaycan iqtisadiyyatı dünya miqyasında rekord templərlə inkişaf etmiş, ümumi daxili məhsul 3,3, sənaye istehsalı 2,6, ixrac 4,7, valyuta ehtiyatları 24 dəfə artıb və bu gün 45 milyard dollar təşkil edir. Bu, onu göstərir ki, Azərbaycan regionlarına və eyni zamanda, neft-qaz sektoruna, Bakı şəhərinin inkişafına böyük vəsait qoyulmasına baxmayaraq, valyuta ehtiyatlarını 24 dəfə artıra bilmişik.**

Aparılan uğurlu siyasət ölkəmizə böyük həcmdə sərmayənin yatırılmasına gətirib çıxarıb. **15 il ərzində Azərbaycana təxminən 250 milyard dollar sərmayə qoyulub və onun yarısı xarici investisiyadır.** Xarici investorlar üçün Azərbaycan çox cəlbedicidir, ölkədəki sərmayə iqlimi xarici investorları həvəsləndirir.

**Diqqətə çatdırılıb ki, Azərbaycan Dünya Bankının “Doing Business” hesabatında ilk dəfə 2006-cı ildə qeyd olunub və həmin vaxt 98-ci yerdə qərarlaşırdı. Aparılan köklü islahatlar, investisiya iqliminin yaxşılaşdırılması nəticəsində son hesabatda Azərbaycan dünya miqyasında 25-ci yerdədir.**

*Ardı 2-ci səhifədə*

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

Yanvarın 29-da axşam ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Con Bolton Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng etmişdir.

Söhbət zamanı qarşılıqlı maraq doğuran bir sıra məsələlər, o cümlədən enerji təhlükəsizliyi, təhlükəsizlik sahəsində əməkdaşlıq və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi müzakirə edilmişdir.

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Yanvarın 28-də Daxili İşlər Nazirliyində 2018-ci ildə cinayətkarlıqla mübarizənin, ictimai qaydanın qorunmasının və ictimai təhlükəsizliyin təmin edilməsinin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

***İclası giriş sözü ilə açan nazir, general-polkovnik Ramil Usubov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən, Heydər Əliyev strateji kursunun, fəal hüquq-mühafizə siyasətinin məntiqi nəticəsi olaraq ölkəmizdə möhkəm təməllərə söykənən ictimai asayiş və sabitlik 2018-ci ildə də etibarlı qorunub. Daxili işlər orqanları tərəfindən əvvəlki illərdə əldə olunmuş müsbət nəticələrin inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb, qarşıda duran vəzifələrin, dövlət plan və proqramlarının icrası təmin edilib.***

Respublikada əməliyyat şəraiti bütövlükdə nəzarətdə saxlanılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı baxımından ölkəmizin ötən il də MDB və Avropa məkanında öncül mövqeyini saxlayaraq ən təhlükəsiz və sabit dövlətlərdən biri olması diqqətəlayiq fakt kimi vurğulanıb.

Daha sonra nazir R.Usubov hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, 2018-ci ildə əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 26.381 cinayət qeydə alınıb, onların 84,7 faizinin açılması təmin olunub. Bu cinayətlərin 92,4 faizi daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində istintaqı və təhqiqatı aparılan hüquqazidd əməllər olmaqla onların 89,7 faizini böyük ictimai təhlükə törətməyən və az ağır növlər təşkil edib. Ağır və xüsusilə ağır cinayətlər 24,3, adam öldürməyə cəhdlər 3,1, qəsdən sağlamlığa ağır zərər vurmalar 16, mülkiyyət əleyhinə cinayətlər 7,7, o cümlədən quldurluqlar 4,8, avtonəqliyyat vasitəsinin qaçırılması 7, dələduzluqlar 28, habelə qrup halında törədilən cinayətlər 2,2, ailə münaqişəsi zəminində baş verənlər 4,5, yol-nəqliyyat hadisələrində ölənlər 3,7, xəsarət alanlar 0,5 faiz azalıb.

Peşəkarlıqla həyata keçirilmiş əməliyyat-istintaq tədbirləri nəticəsində cinayətlərin ağır və xüsusilə ağır növlərinin açılması 4,4, şəxsiyyət əleyhinə cinayətlərin açılması 0,8, o cümlədən adam öldürməyə cəhdlərin açılması 2,7, mülkiyyət əleyhinə cinayətlərdən olan dələduzluqların açılması 3,1, soyğunçuluqların açılması 1,3, quldurluqların açılması 0,7, hədə-qorxu ilə tələb etmələrin açılması 2,4, avtonəqliyyat vasitəsinin qaçırılmasının açılması 6,2, habelə xuliqanlıqların açılması 2,5 faiz yaxşılaşıb. Prokurorluq orqanları ilə birgə keçmiş illərdən bağlı qalmış 332 cinayətin açılması təmin edilib.

*Ardı 2-ci səhifədə*

# DAXİLİ İŞLƏR NAZİRLİYİ MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

*Əvvəli 1-ci səhifədə*

Məruzəçi hüquqpozmaların qarşısının vaxtında alınmasında informasiya texnologiyalarının tətbiqinin böyük əhəmiyyətini də qeyd edərək “102-Zəng Mərkəzi” Xidmətinə daxil olan məlumatlar üzrə operativ tədbirlər və əməliyyat planlarının vaxtında tətbiqi nəticəsində 1801 cinayətin “isti izlər”lə açıldığını, 9.435 hüquqazidd əməlin qarşısının alındığını vurğulayıb. Bildirilib ki, “Təhlükəsiz şəhər” sisteminin texniki imkanları ilə 566 cinayət açılıb, 20.480 hadisə aşkarlanıb, axtarışda olan 90 avtomobil saxlanılıb.

Ümumən, polisin əsas funksiyalarından olan cinayətlərin açılması 85,5 faiz təşkil edib. Məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan 3794 nəfər və ya müqayisə edilən dövrə nisbətdə 11 faiz çox təqsirləndirilən şəxs tutulub. Bütövlükdə, axtarış işinin nəticələri 3,1 faiz yaxşılaşaraq 74,5 faiz təşkil edib.

Nazir diqqətə çatdırıb ki, mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində 2277 cinayət törətmiş 869 cinayətkar qrup zərərsizləşdirilib, polis əməkdaşlarına silahlı müqavimət göstərən 5 nəfər məhv edilib.

Transmilli mütəşəkkil cinayətlərdən olan narkotraffikə qarşı həyata keçirilən tədbirlərlə qeyri-leqal dövriyyədən 1 ton 136 kiloqram narkotik vasitə çıxarılıb, 45 cinayətkar qrup zərərsizləşdirilib. Ümumi çəkisi 138 tona yaxın narkotik tərkibli bitki yığılaraq yaşıl kütlə halında məhv edilib.

İnsan alverinin və bu cinayətin qurbanlarının müəyyən edilməsi üzrə Milli Fəaliyyət Planı əsasında görülən işlər də ardıcıl olub. Nəticədə 144 insan alveri və 4 məcburi əmək cinayəti müəyyən edilib, 28 nəfərdən ibarət 13 cinayətkar qrup zərərsizləşdirilib, bu cinayətlərin qurbanı olmuş 98 şəxsin cəmiyyətə reinteqrasiyası təmin edilib.

Ötən il respublikanın hüquq-mühafizə orqanları tərəfindən 31.539 cinayət işinin istintaqı aparılıb ki, onlardan 80 faizi daxili işlər orqanları müstəntiqlərinin icraatında olub. Vətəndaşlara dəymiş maddi ziyanın ödətdirilməsi 2017-ci illə müqayisədə 2 faiz yaxşılaşaraq 86,8 faiz təşkil edib.

Məruzədə yol-nəqliyyat hadisələrinin dinamikasında, qəzalarda ölən və xəsarət alanların sayında artıq altıncı ildir ki, nəzərəçarpan azalmanın müşahidə olunduğu nəzərə çatdırılıb. Bildirilib ki, yol hərəkəti qaydaları əleyhinə olan hüquqpozmaların aşkarlanması 1,3 faiz artaraq 3.409.698 inzibati xəta təşkil edib. Ümumilikdə, daxili işlər orqanlarının bütün struktur qurumları üzrə müxtəlif inzibati xətalara görə 3.442.148 protokol tərtib edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının maddi-texniki bazasının gücləndirilməsi, şəxsi heyətinin sosial müdafiəsinin və xidmət şəraitinin yaxşılaşdırılması ilə bağlı 2018-ci ildə də mühüm tədbirlər görülüb. Bununla yanaşı, ölkədə keçirilmiş 735, o cümlədən 489 respublika və beynəlxalq əhəmiyyətli kütləvi tədbirdə Daxili Qoşunların, Əlahiddə Çevik Polis Alayının və ərazi polis orqanlarının şəxsi heyəti tərəfindən asayişin və təhlükəsizliyin təmini ilə bağlı qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirildiyi də diqqətə çatdırılıb.

General-polkovnik Ramil Usubov qeyd edib ki, xidməti fəaliyyətin prioritet istiqamətlərindən olan vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrası daim ciddi nəzarətdə saxlanılıb və ardıcıllıqla yerinə





yetirilib. Nazirliyin rəhbərliyi tərəfindən 3639, o cümlədən kütləvi informasiya vasitələrində qabaqcadan məlumat verilməklə respublikanın 64 şəhər və rayonundan olan 1872 vətəndaşın qəbulu həyata keçirilib, qaldırılan məsələlərin əksəriyyəti yerində həllini tapıb. Göstərilən sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq, polis əməkdaşlarının qanunsuz hərəkətləri barədə şikayətlərin sayı 11 faiz azalıb.

O, daxili işlər orqanlarına xidməti vəzifələrin icrasında yaxından köməklik göstərdiklərinə görə ölkə vətəndaşlarına, hüquq-mühafizə və xüsusi xidmət strukturlarının, kütləvi informasiya vasitələrinin, ictimai təşkilatların rəhbərlərinə və əməkdaşlarına təşəkkürünü bildirib.

***Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov çıxış edərək ölkə Prezidenti zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızın 2018-ci ildə də dinamik şəkildə inkişaf etdiyini, dünyada və bölgədə baş verən neqativ tendensiyalara, qlobal proseslərə baxmayaraq Azərbaycanın müstəqillik yolu ilə inamla irəlilədiyini, hüquqi-demokratik islahatların, böyük infrastruktur layihələrinin və sosial yönümlü proqramların uğurla həyata keçirildiyini qeyd edib.***

Ötən il Azərbaycan Polisinin də 100 illiyinin böyük təntənə ilə qeyd edilməsinin təkcə daxili işlər orqanlarının deyil, xalqımızın da həyatında əlamətdar hadisə kimi dəyərləndirən cənab Fuad Ələsgərov möhtərəm Prezidentimizin ictimai qaydanın, insan hüquq və azadlıqlarının nümunəvi qorunmasında, cinayətkarlıqla qətiyyətli mübarizədə daxili işlər orqanlarının rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini, onun maddi-texniki bazasının daha da möhkəmləndirilməsi, şəxsi heyətin iş, məişət şəraitinin və sosial müdafiəsinin daha da yaxşılaşdırılması üçün lazımi tədbirlərin görüldüyünü, Azərbaycan Polisinin dövlətçiliyin qorunmasında əsas dövlət təsisatı olduğunu bildirib. Respublikamızda ictimai-siyasi sabitliyin, habelə, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasında daxili işlər orqanları əməkdaşlarının önəmli rolunu, cinayətlərin yüksək açılma göstəricilərinin arxasında şəxsi heyətin gecəli-gündüzlü, fədakar xidmətinin dayandığını vurğulayıb. Azərbaycanı yenidən xaos, anarxiya girdabına yuvarlamağa, müstəqillik yolundan sapdırmağa yönəlmiş pozuculuq hərəkətlərinin, qanunsuz əməllərinin qarşısının daxili işlər orqanları tərəfindən bundan sonra da qətiyyətlə alınacağına əminliyini ifadə edib. Xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün qanunvericiliyə edilən dəyişikliklərin əhəmiyyətini, yeni informasiya texnologiyalarının tətbiqinin daha geniş şəkildə istifadəsinin vacibliyini nəzərə çatdırıb.

Məruzə ətrafında Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri Fazil Ələkbərov, Bakı Şəhər Baş Polis İdarəsinin rəisi Mirqafar Seyidov, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi Seyfulla Əzimov, Baş Dövlət Yol Polisi İdarəsinin rəisi Ramiz Zeynalov, Baş Mühafizə İdarəsinin rəisi Yaşar Əliyev və başqaları çıxış edərək hesabat dövründə görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün qarşıya qoyulmuş vəzifələrdən, həyata keçiriləcək konkret tədbirlərdən danışıblar.

İclasa yekun vuran general-polkovnik Ramil Usubov 2018-ci ildə əməliyyat-xidməti fəaliyyətdə əldə edilmiş müsbət nəticələrlə bərabər, ayrı-ayrı ərazi orqanlarında ümumi işə mənfi təsir göstərən halların mövcud olduğunu bildirib, tədbir iştirakçılarının diqqətini onların hərtərəfli təhlilinə, aradan qaldırılması yollarına, həmçinin, qarşıda duran vəzifələrə yönəldib, konkret tapşırıq və tövsiyələrini verib.

Daha sonra nazir son günlər, əsasən, radikal müxalifəti təmsil edən destruktiv qüvvələrin paytaxtda guya icazəli mitinq keçirmək adı altında polis əməkdaşları ilə bilərəkdən qarşıdurma yaratmaqla, vətəndaşların istirahət hüquqlarını, sabitliyi, əmin-amanlığı, ictimai qaydanı kobud şəkildə pozmaqla, insanlarda qorxu və çaşqınlıq yaratmaqla müşayiət olunan hüquqazidd əməllərinə münasibət bildirib. O, son günlər özlərini yenidən gündəmə gətirmək istəyən müxalifət düşərgəsinin bəzi mənsublarının səsləndirdikləri "polis qorxdu", "hökumət geri çəkildi" kimi öz ətraflarını cürətləndirmək arzusundan doğan fikirlərin gerçəklikdən çox uzaq, heç vaxt reallaşmayacaq bir arzu olduğunu xatırladaraq hər bir şəxsin bildiyi sadə həqiqətləri diqqətə çatdırıb.

Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin milli maraqlardan qaynaqlanıb möhkəm təməllər üzərində qurduğu dövlətçiliyimizlə, cənab Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilən ölkəmizin uğurları ilə bu gün hər bir azərbaycanlı fəxr edir. Ötən 26 ildə məhz bu iqtidarın həyata keçirdiyi müdrik siyasət nəticəsində xaosa, anarxiyaya son qoyulub, Ermənistanın ölkəmizə təcavüzünün qarşısı alınıb, insanların pozulmuş hüquqları, dövlətə, hakimiyyətə, gələcəyə olan inamı bərpa edilib. Lakin respublikamızda əmin-amanlığın, təhlükəsizliyin daimi və davamlı olduğunu görüb qorxuya düşən, gün-gündən gözəlləşən, dünyanın ən yaraşıqlı paytaxt şəhərlərindən birinə çevrilən Bakımızın, həmçinin regionlarımızın inkişafından xoflanan, vətəndaşlarımızın, xüsusən qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin ilbəil daha əhatəli həllindən rahatsızlaşan, ordumuzun qüdrətinin artmasından, onu yüksək nizam-intizamlı, vətənpərvər, torpaqlarımızı işğaldan azad etməyə hər zaman qadir və döyüş ruhunu gördükcə kədərlənən, yüz minlərlə gənclərimizin Vətənimizin işıqlı gələcəyi, müasir Azərbaycanın daha sürətli inkişafı üçün göstərdiyi böyük coşqudan və çalışqanlıqdan məyus olan, xalq-iqtidar birliyinin sarsılmazlığından, onun bəhrələri olan inkişafdan, tərəqqidən, irəliləyişlərdən, yüksəlişlərdən əndişələnən bu antimilli qüvvələr həqiqətən də qorxuya düşüblər.

Onlar növbəti təxribatlara əl atmaqla xalqımızı yenidən daxili çəkişmələrə, parçalamağa, ölkəmizi böhrana, bir vaxtlar yaratdıqları, indi isə xiffətini çəkdikləri özbaşınalıq və hərc-mərclik dövrünə sürükləməyə cəhdlər edirlər. General-polkovnik R.Usubov milli maraqlarımıza zidd olan belə avantürist hərəkətlərin qarşısının xalqımızın dəstəyi, qanunlarımızın gücü, dövlətimizin hüquq-mühafizə orqanlarının sıx birliyi ilə bundan sonra da alınacağını bildirib.

***Nazir qətiyyətlə bəyan edib ki, daxili işlər orqanları siyasi baxışlarından, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq, bütün vətəndaşlarımızın əmin-amanlığını, ölkəmizdəki sabitliyi istənilən təhdidlərdən, fürsətçi kəslərin və macəra axtaranların təxribatçı, avantürist hərəkətlərindən qoruyub, bundan sonra da qətiyyətlə qorumaqda davam edəcək, heç kəsin qanunazidd əməllərə əl atmaq cəhdlərinə imkan verilməyəcək.***

***O da təəssüflə qeyd olunub ki, antimilli, radikal qüvvələrin kədəri də, sevinci də Vətənimizin, xalqımızın uğuruna sevinməyən xarici bədxahlarımızın niyyətləri, əməlləri ilə üst-üstə düşür. Cənab R.Usubov xüsusilə vurğulayıb ki, bizim sevincimiz xalqımızın sevincidir, onun əmin-amanlıq, təhlükəsizlik, rifah içində yaşamasıdır. Yolumuz da bu xalqa, bu Vətənə sədaqətli xidmət yoludur, Heydər Əliyev yoludur.***

*28 yanvar 2019-cu il*

# İNKİŞAFIN, SABİTLİYİN AZƏRBAYCAN NÜMUNƏSİ

*Əvvəli 1-ci səhifədə*

**Son 15 il ərzində 2 milyon yeni iş yeri yaradılıb.** Əhalinin sayı isə 1,6 milyon artmışdır. Bu da çox gözəl göstəricidir. Əhali nə qədər çox olarsa, ölkəmiz də o qədər sürətlə inkişaf edər. Cənab Prezident bunu da vurğulayıb ki, işimizi elə görməliyik ki, iqtisadi inkişaf, iş yerlərinin yaradılması əhalinin artımından daha da sürətlə getsin, artan əhali işlə təmin olunsun.

Artan iqtisadi imkanlarımız sosial məsələlərə də çox böyük diqqət ayrılmasına şərait yaratmışdır. **Son 15 il ərzində maaşlar 7, pensiyalar 9 dəfə artıb, 3 min 200-dən çox məktəb əsaslı təmir edilib və ya yenidən tikilib, 640 tibb müəssisəsi tikilib və yenidən qurulub, bölgələrdə 44 Olimpiya mərkəzi yaradılıb.**

Məcburi köçkünlərin problemləri həmişə diqqət mərkəzində olmuşdur, bu gün də belədir. Son illər ərzində **100-dən çox köçkün şəhərciyi tikilib. Şəhid ailələri, müharibə veteranları, müharibə əlilləri üçün 6650 mənzil təqdim edilib.**

Ölkə rəhbərimiz daha sonra deyib:

***-Azərbaycan sabitlik, təhlükəsizlik məkanıdır. Yaxın tarix əyani şəkildə göstərdi ki, sabitlik pozulanda ölkələr çox pis vəziyyətə, idarəolunmaz vəziyyətə düşür, iqtisadiyyat çökür, sənaye iflic olur, insanlar əziyyət çəkir və sonra bu vəziyyətdən çıxmaq üçün onilliklər lazım olur. Azərbaycanın uğurlu inkişaf modelinin əsas qayəsi ondadır ki, ölkəmizdə aparılan siyasət xalq tərəfindən dəstəklənir. Çünki bu siyasət xalqımızın rifah halının yaxşılaşmasına hesablanıb. Bu siyasət ölkəmizin güclü dövlətə çevrilməsinə hesablanıb. Məhz bu siyasət nəticəsində bu gün Azərbaycan dünyanın müxtəlif kürsülərindən öz sözünü açıq deyir, öz müstəqil siyasətini aparır, öz maraqlarını tam şəkildə qoruyur.***

***Azərbaycanda aparılan iqtisadi, siyasi islahatlar, ölkəmizin güclənməsi bizə dünyada gedən riskli proseslərdən özümüzü qorumağa imkan yaratdı. Bir daha demək istəyirəm, bizim xarici siyasətimizin əsas məqsədi ondan ibarətdir ki, xaricdən gələn mümkün risklərin idarə olunmasına, azaldılmasına, aradan qaldırılmasına imkan versin. Biz buna nail oluruq. Son 15 il ərzində Azərbaycan xalqı əmin-amanlıq şəraitində yaşayır. Azərbaycan xalqı rahat yaşayır, qurur, yaradır. Hesab edirəm ki, hər bir vətənpərvər insan öz ölkəsi ilə, bugünkü Azərbaycan ilə haqlı olaraq fəxr edə bilər…***

Konfransda bildirilib ki, sənayeləşmə prosesi də uğurla gedir. Son vaxtlar sənaye parklarının fəaliyyətə başlaması geniş vüsət almışdır. İndi bu proses bir neçə şəhərdə gedir və sənaye parklarında bizim 67 rezidentimiz var. Onlardan 40-ı artıq fəaliyyətdədir. Aqroparkların yaradılması çox müsbət hal kimi qiymətləndirilir. Proqramda 51 aqroparkın yaradılması nəzərdə tutulub. Onlardan 17-si fəaliyyətdədir. Qalan aqroparkların işə düşməsi nəticəsində həm bölgələrdə yeni iş yerləri yaradılacaq, həm də kənd təsərrüfatı məhsullarımızın istehsalı və ixracı daha da artacaq.

On beş il bundan əvvəl Azərbaycan özünü elektrik enerjisi ilə təmin edə bilmirdi. Ya xaricdən idxal edirdi, ölkəmizin bəzi yerləri işıqsız qalırdı. **Ötən 15 il ərzində 31 yeni stansiya tikilib, 2500 meqavatlıq yeni güclər yaradılıb.** Biz indi nəinki özümüzü təmin edirik, elektrik enerjisini ixrac edirik. Təbii qaz ilə təminat 15 il bundan əvvəl təxminən 50 faiz səviyyəsində idi, bu gün 95 faizdir. İçməli su 26 faiz təmin edilirdi, bu gün 70 faizdir. On beş il ərzində 15 min kilometr avtomobil yolu tikilib.

Dövlət başçısı yekun nitqində qarşıda duran vəzifələrdən danışarkən bir məqama da toxunub:

***-Əlbəttə ki, son illərdə bir çox müəssisələr yaradılıb və orada iş yerləri açılıb. Sahibkarlara tövsiyəm ondan ibarətdir ki, iş yerlərini ixtisar etməsinlər. Çünki bu gün dünyada ümumi meyil ondan ibarətdir ki, daha çox texnologiyalara üstünlük verilir, elmi-texniki tərəqqi yeni texnologiyalar ortaya çıxarır, robotlar insanları əvəzləyir, bütün bunlar reallıqdır. Biz bu reallıqla hesablaşmalıyıq. Ancaq, eyni zamanda, biz Azərbaycanda mütləq iş yerlərini qorumalıyıq - həm dövlət qurumlarında, həm özəl sektorda. Dövlət qurumlarında aparılan struktur islahatları, - bütün dövlət qurumlarına artıq bildirilib, - iş yerlərinin ixtisarına gətirib çıxarmamalıdır. Bu struktur islahatları, sadəcə olaraq, idarəetmə mexanizminin təkmilləşməsinə yönəlib. Əlbəttə, dövlət müəssisələrində işləyən vətəndaşlar öz işlərində qalacaqlar. Özəl sektor da heç bir ixtisar aparmamalıdır, əksinə, dövlətin bu qədər dəstəyi müqabilində daha çox iş yerləri açmalıdır. Yenə də deyirəm, bu istiqamətdə proses müsbət gedir. Keçən il 118 min daimi iş yeri yaradılıb və təbii ki, bu, özəl sektorda yaradılmış iş yerləridir…***

***Yerli icra orqanları vətəndaşlara daim diqqət və qayğı göstərməlidirlər. Yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlar üçün çalışırlar, yaddan çıxarmamalıdırlar ki, onlar vətəndaşlara xidmət edirlər. Bütün dövlət məmurları - Prezidentdən başlayaraq, lap aşağı səviyyəli məmura qədər hər kəs bilməlidir ki, bizim əsas vəzifəmiz xalqa xidmət etməkdir…***

*İnformasiya bölməsi*

# DAŞ ALTINDA YATAN XƏYANƏT

**Yetmiş il bütün var-dövlətimizlə, təbii sərvətlərimizlə, var qüvvəmizlə qulluğunda dayandığımız sovet imperiyası ermənilərin fitvasına uyaraq öz ərazi bütövlüyünü qorumağa çalışan xalqımızın üzərinə təpədən-dırnağadək silahlanmış hərb maşını yeritdi.**

1990-cı ilin Qanlı Yanvarından sonra, Azərbaycanın hər yerində olduğu kimi, Qarabağda da ağır vəziyyət yaranmışdı. Erməni silahlıları hərbi üstünlüklərindən istifadə edərək Dağlıq Qarabağda azərbaycanlıların yaşadıqları kənd-qəsəbələri mühasirəyə alıb, müxtəlif üsullarla onları bir-birindən təcrid edir, bir-birinin ardınca yağmalayırdılar. Bu məntəqələrin işğalı zamanı dinc əhaliyə olmazın divan tutulur, məhv edilir, evləri, təsərrüfatları qarət olunaraq yandırılırdı.

Yanvarın 26-da silahlı qüvvələrimizin böyük itki ilə nəticələnmiş daha bir uğursuz əməliyyatının ildönümünü qeyd edirik. Şuşa yaxınlığındakı Daşaltı kəndində onlarla Azərbaycan övladının şəhid olmasından 27 il ötür…

"Daşaltı" əməliyyatı keçirilən ərəfədə Azərbaycan cəmi üç ay idi ki, hüquqi müstəqillik qazanmışdı, SSRİ-nin süqutundan heç bir ay ötməmişdi və sovet ordu hissələri hələ Azərbaycan ərazisindən, o cümlədən Xankəndindən çıxarılmamışdı.

Daşaltı əməliyyatı 1992-ci il yanvarın 25-də axşam saat 20:00 radələrində başlanıb və yanvarın 26-sı axşam saatlarında uğursuzluqla başa çatıb. Erməni yaraqlıların güclü bazaya çevirdiyi Daşaltını azad etmək üçün keçirilmiş əməliyyatda Müdafiə Nazirliyinin yenicə yaranmış təxminən 120 nəfərlik I taboru və Şuşa Müdafiə taborunun döyüşçüləri, eləcə də nazirliyin Kəşfiyyat Xidmətinin zabitlərdən ibarət 11 nəfərlik diversiya dəstəsi iştirak edib. Sonradan Laçın alayı və polisindən kömək gəlib. Taktiki səhvlər, qruplar arasında rabitə əlaqəsinin olmaması, əməliyyat sirrinin yayılması və bələdçilərin xəyanəti nəticəsində Nəbilər kəndi istiqamətindən Daşaltına daxil olan müdafiəçilər düşmənin pusqusuna düşərək tamamilə məhv edilib. Kəndə daxil olmuş bir neçə taqım isə xeyli itki verərək geri çəkilə bilib.

Daşaltı əməliyyatında Azərbaycan Ordusu 90 nəfərdən artıq itki verib, bundan başqa onlarla əsgər hələ də itkin düşmüş sayılır. Təkcə ilk könüllülərdən ibarət tabor 77 şəhid verib.

Şuşanın mərkəzindən təxminən 3 kilometr cənubda, Cıdır Düzündən aşağıda, eyniadlı çayın sahilində yerləşən Daşaltı özü başdan-ayağa bir sirrdir. Kənd Şuşanın təbii qalasının – nəhəng qayalığın altında yerləşdiyindən belə adlanır. Cıdır Düzündən Daşaltı çayının sahilinə "Qırx pilləkən" enirdi. Orada böyük Daşaltı mağarasının bir hissəsi olan 10 otaqlı "Xəzinə-qala" var. O dərələrdə Azərbaycan tarixinin çox sirləri yatırdı. İndi ermənilər saxta "arxeoloji qazıntılar" apararaq bu sirləri ört-basdır edir.

Düşmən artıq 27 ildir ki, milli xəyanətkarlarımızın köməyi ilə müdhiş Daşaltı əməliyyatının sirlərini də basdırmağa çalışır. Biz isə nə Daşaltını, nə də digər itirdiklərimizi unutmuruq. Qanı hələ də axan yara necə unudula bilər ki...

*Ruhiyyə Əliyeva,*
*polis leytenantı*

# BAKI ŞƏHƏR BAŞ POLİS İDARƏSİNDƏN

Yanvarın 26-da saat 15:30 radələrində 50-60 nəfərdən ibarət bir qrup şəxs "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun tələblərini pozaraq Yasamal rayonu Mirəli Seyidov küçəsində toplaşaraq küçə yürüşü keçirməyə cəhd etmişdir.

Bu zaman ətrafdakıların diqqətini cəlb etmək, əhali arasında qorxu, vahimə yaratmaq, vətəndaşların istirahət hüquqlarının pozulması kimi qanunazidd hərəkətlərə yol verib, ərazidə xidmətdə olan polis əməkdaşlarına qarşı tabesizlik göstərmişlər.

Operativ həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə ictimai asayişin pozulması ilə müşayiət olunan qanunsuz küçə yürüşünün qarşısı alınmışdır. Aksiyanın 15 iştirakçısı saxlanılıb Yasamal rayon polis idarəsinə gətirilmiş, digərləri ərazidən uzaqlaşdırılmışlar.

Saxlanılan şəxslərdən 10 nəfəri məhkəmə tərəfindən inzibati qaydada həbs edilmiş, 5 nəfər xəbərdar olunduqdan sonra sərbəst buraxılmışdır.

# AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ

## 2019/2020-ci TƏDRİS İLİ ÜÇÜN DİN-in POLİS AKADEMİYASINA ƏYANİ TƏHSİL ÜZRƏ KURSANTLARIN QƏBULUNA DAİR

## ELAN

Azərbaycan Respublikası daxili işlər nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında əyani təhsil üzrə 150 kursantın qəbulu üçün müsabiqə elan edir.

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarə, şöbə və bölmələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşdan 18 yaşadək (2019-cu ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və çağırışçı olmayan) Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

İkili vətəndaşlığı, digər dövlətlər qarşısında öhdəlikləri olan şəxslər, 2019-cu ilin yanvar, aprel və iyul tarixli çağırışlarında hərbi xidmətə getməli olan çağırışçılar, din xadimləri, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, cinayət törətdiyinə görə əvvəllər məhkum olunmuş, habelə barəsində cinayət işinin icraatına bəraətverici əsaslar olmadan xitam verilmiş, eləcə də "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamə ilə müəyyən olunmuş digər şərtlərə uyğun gəlməyən vətəndaşlar müsabiqəyə buraxılmırlar.

**Sənədlərin qəbulu 2019-cu il yanvar ayının 21-dən fevral ayının 28-dək hər gün (bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək namizədin daimi qeydiyyat yeri üzrə polis idarə və ya şöbələrində həyata keçirilir. Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:**

***– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və surəti);***

***– təhsil müəssisəsinin buraxılış sinfində oxuması haqqında DİN-ə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat);***

***– yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-ə təqdim olunması üçün sağlamlıq haqqında arayış;***

***– ilkin hərbi qeydiyyata alınma haqqında vəsiqə (əsli və surəti);***

***– oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-ə təqdim olunması üçün verilmiş xasiyyətnamə;***

***– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda).***

Sənəd qəbulu ilə bağlı əlavə məlumat almaq üçün əlaqə telefonları: **(012) 454-12-78, (012) 590-97-76.**

İlkin sənədləri Polis Akademiyasında təhsilə, eyni zamanda daxili işlər orqanlarında xidmətə uyğun gələn namizədlərə müvafiq forma üzrə ərizə-öhdəlik yazmaq təklif olunur və onlar abituriyent hesab olunur.

Abituriyentlər DİN-in Tibb İdarəsinin Xüsusi Həkim Komissiyasında müayinədən, habelə fiziki hazırlıq imtahanı və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər (fiziki hazırlıq üzrə minimal normativlər oğlanlar üçün: turnikdə dartınma – 6 dəfə; qaçış 100 metr məsafəyə – 15 saniyə və 1000 metr məsafəyə – 4 dəqiqə; qollar üzərində bədənin döşəmədən qaldırılması – 18 dəfə; arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə; qızlar üçün: arxası üstə uzanmış halda bədənin döşəmədən qaldırılması – 18 dəfə, qaçış 100 metr məsafəyə – 19 saniyə və 1000 metr məsafəyə – 5 dəqiqə 30 saniyə).

Fiziki hazırlıq normativlərindən birini ödəyə bilməyən, nazirliyin seçmə və ya tibb komissiyalarından keçə bilməyən abituriyentlər müsabiqədən kənarlaşdırılır. Komissiyaların işi ilə bağlı şikayətlərə nəticələr elan olunduğu vaxt abituriyentin komissiya sədrinə müraciəti olduqda baxılır.

**Seçmə komissiyalarının vaxtı barədə məlumatlar Daxili İşlər Nazirliyinin www.mia.gov.az internet saytında yerləşdiriləcək.**

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən abituriyentlərin siyahısı Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar test üsulu ilə birinci mərhələdə buraxılış imtahanı fənləri üzrə, ikinci mərhələdə isə III ixtisas qrupunun fənləri üzrə Azərbaycan və rus dillərində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşdirmə, imtahanların vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə həmin Mərkəzin internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-in Polis Akademiyasına qəbul olunmuş kursantlar 12 avqust – 14 sentyabr 2019-cu il tarixdə Akademiyada ilkin hazırlıq kursuna cəlb edilir. Dərslər 16 sentyabrda başlamaqla tədris azərbaycan dilində aparılır. Təhsil müddəti 5 ildir.

Təhsil müddətində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur, oğlanlar və qızlar istisna olmadan Akademiyanın ərazisində yerləşən yataqxanada yaşayırlar.

Məzunlara "hüquqşünaslıq" ixtisası, "polis leytenantı" xüsusi və "ehtiyatda olan leytenant" hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

**Ətraflı məlumatlar Akademiyanın www.pa.edu.az internet saytında yerləşdirilmişdir.**

# DÜNYA GÖR-GÖTÜR DÜNYASIDIR...



**Bu dəfəki xidməti dərs rəisin kabinetində keçirilirdi. Şəxsi Heyətlə İş İdarəsinin rəisi, polis polkovniki Rahib Qarayev:** "Bu xidməti dərsimizin daha yadda qalması üçün polis veteranını dəvət etməyimiz heç də səbəbsiz deyil",- dedi və onu kollektivə təqdim etdi: "İstefada olan polis polkovniki, hüquq elmləri doktoru Yəhya Əliyev. İnanıram ki, o, sizi düşündürən suallara ətraflı cavab verəcək, sözün əsl mənasında, bilmədikləriniz mətləbləri ondan öyrənəcəksiniz".

Veteran əvvəlcə təqaüddə olduğu müddətdə gördüyü işlərdən, tariximizlə bağlı ərsəyə gətirdiyi kitablardan söhbət açdı. İdarənin funksional vəzifələrindən biri kimi veteranlarla gənc əməkdaşların görüşlərinin faydalı iş əmsalına təsirini də vurğulayan Y.Əliyev ölkəmizdə veteran hərəkatının geniş vüsət aldığını, gənclərlə keçirilən görüşlərdə onların təcrübələrini bölüşməsini dəyərli bir vaxt kimi diqqətə çatdırdı. Daxili işlər orqanlarının ictimaiyyət arasında nüfuzunun artmasına xidmət edən bu kimi tədbirlərin mütəmadi keçirilməsini, hətta Şəxsi Heyətlə İş İdarəsinin rəhbərliyinin bunu xidməti dərs səviyyəsində ərsəyə gətirməsini yenilik adlandıran veteran gənc əməkdaşların suallarını cavablandırdı, tövsiyələrini verdi.

# GƏNCLİYİMİZ- GƏLƏCƏYİN QURUCUSU

**Cəmiyyətimizin formalaşmasında və milli-mənəvi dəyərlərimizin qorunub-saxlanmasında gənclərin rolu önəmlidir. Buna görə də ölkəmizdə gəncliyin inkişafı, gənclərin dünya birliyinə inteqrasiyası və bu istiqamətdə əhəmiyyətli tədbirlərin keçirilməsi dövlət siyasətinin prioritetlərindəndir.**

Ulu öndər Heydər Əliyev gənclərin imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir və bu siyasəti müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirirdi.

**Ümummilli liderin fərmanı ilə 26 iyul 1994-cü ildə dövlət Gənclər və İdman Nazirliyi yaradıldı. Bu, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində vacib və zəruri tədbir idi. 1996-cı il 2 fevral tarixində məhz ulu öndərin dəstəyi ilə gənclərin 1-ci forumu keçirildi. 1997-ci ildən isə Prezidentin sərəncamı ilə2 fevral tarixindən Azərbaycan Gənclər Günü kimi qeyd olunmağa başladı.**

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün də ölkə başçımız tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidenti tərəfindən həyata keçirilən gənclər siyasəti respublikamızda gəncliyin inkişafına təkan verir, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayır. 2005-ci il avqustun 30-da "Azərbaycan Gəncliyi Dövlət Proqramının (2005-2009-cu illər) təsdiq edilməsi haqqında sərəncam imzalanıb. Dövlət başçımızın bu sahəyə olan diqqəti özünü ayrıca bir ilin (2007-ci il) "Gənclər ili" elan edilməsində də göstərib. Ölkə rəhbərimiz həmçinin "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə sərəncam imzalayıb.

Respublika daxili işlər orqanları da ölkəmizdə həyata keçirilən gənclər siyasətindən kənarda qalmamışdır. Hər il həm DİN–nin Polis Akademiyasını və eyni zamanda digər təhsil ocaqlarını bitirmiş gənclər şəffaf şəkildə daxili işlər orqanlarında işlə təmin olunur. Onlara hami tərbiyəçilərin təyin edilməsi peşəkar həmkarlarının bilik və bacarığından yararlanmağa tam şərait yaradır. Ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı gənc əməkdaşlara daha yaxşı işləmək və özünü müsbət tərəfdən göstərmək imkanı verir. Daha səylə və məsuliyyətlə çalışmaları onların hərbi-vətənpərvərlik ruhunun tərbiyəsində və peşəkarlıqlarının artırılmasında mühüm rol oynayır. Dünya üzrə keçirilən idman yarışlarında qalibiyyət qazanaraq ölkəmizi yüksək səviyyədə təmsil edənlər arasında məhz daxili işlər orqanları əməkdaşlarının sayı yetərincədir.

Ölkəmizdə gənc nəslin sağlam və vətənpərvər ruhda yetişməsi istiqamətində daxili işlər orqanları əməkdaşları yaxından iştirak edir, qabaqlayıcı tədbirlər görürlər. Hüquq pozuntularının profilaktikası məqsədi ilə ərazi polis orqanlarının əməkdaşları, polis veteranları orta məktəblərdə şagirdlərlə vaxtaşırı görüşlər keçirir, onlarla tərbiyəvi-profilaktiki söhbətlər aparırlar. Azyaşlıların, yeniyetmə və gənclərin törədə biləcəkləri cinayətlərin qarşısının alınması məqsədi ilə vaxtında keçirilən qabaqlayıcı tədbirlər neçə-neçə gəncin normal həyata qayıtmağında mühüm rol oynamışdır.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# SÖZ VERİBLƏR...
## BU İL DƏ BİRİNCİ OLACAQLARINA

**Onlar da işin çətinindən yapışıblar. Qarşıya çıxan çətinliklərə baxmayaraq, öhdələrinə düşəni layiqincə yerinə yetirib üz ağardırlar. Torpaqda iz qoyurlar ki, süfrədə üzləri olsun.**



Gənc olsa da qısa zaman kəsiyində öz idarəçilik qabiliyyəti, təşkilatçılıq bacarığı ilə kollektiv arasında sağlam mühit yaradaraq iki il paytaxtın mühafizə idarələri arasında birinciliyi qoruyub-saxlamağa nail olan rəis, polis polkovnik-leytenantı Nazim Həsənovla söhbətimiz də elə əldə olunan nəticələrlə bağlıydı. Həm ötən ilin nəticələrinə nəzər yetirdik, həm də görüləcək perspektivləri müzakirə etdik.

Məlum oldu ki, idarə tərəfindən 975 obyekt və 506 mənzil qorunur. Obyektlərdən 24-ü stasionar polis, 26-sı MMX, 9-u isə qarışıq xidmət və digər xidmətlə, ümumilikdə 911-i Mərkəzi Müşahidə Məntəqəsi vasitəsilə qorunur. Hesabat dövründə yeni obyektlərin mühafizəyə cəlb olunması istiqamətində də müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, daha 40 yeni obyekt mühafizəyə cəlb edilərək ümumi say 230-a çatdırılmışdır. Mənzillərin bu il mühafizəyə cəlb edilməsi istiqamətində də Rayon Polis İdarəsi ilə iş gücləndirilmiş, məktəblərdə, əmək kollektivlərində keçirilən görüşlərdə idarənin rəhbərliyi də iştiraka dəvət edilmiş və polis tərəfindən mühafizə işinin təşkili barədə ətraflı məlumatlar verilmişdir.

Yeri gəlmişkən, Xətai RPİ-nin imkanlarından istifadə edilərək ümumi sayı 74 olmaqla 2018-ci ildə 32 obyekt mühafizəyə cəlb olunmuş, siqnal sistemləri ilə təchiz edilmiş və Mərkəzi Müşahidə Məntəqəsinə qoşulmuşdur. Bu il daha 23 mənzil qorumaya qəbul olunaraq sayı 55-ə çatdırılmışdır.

Vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşılması diqqət mərkəzində saxlanılıb. Məhz bunun nəticəsidir ki, cari ilin müvafiq dövrü ərzində 964 vətəndaş müraciəti daxil olmuş və onların hər biri vaxtında cavablandırılmışdır.

Cinayətkarlığa və ictimai qaydanı pozanlara qarşı mübarizə qətiyyətlə davam etdirilmişdir. Belə ki, şəxsi heyət tərəfindən xidməti post və marşrutlarda oğurluq faktlarının, o cümlədən 8 digər cinayətin qarşısı alınmış, şübhəli bilinən 10 nəfər, həmçinin axtarışda olan 73 nəfər saxlanılaraq ərazi polis orqanlarına təhvil verilmişdir.

Bölük komandiri, polis mayoru Elçin Quliyevin "Tutucu qrup"un üzvləri ilə apardığı söhbət diqqətimizdən yayınmadı. Burada gənc əməkdaşların polisin etik-davranış kodeksinin müddəalarına riayət etmələri, vətəndaşlarla ünsiyyətqurma bacarığı xüsusilə diqqət mərkəzində saxlanılır və hami-tərbiyəçilərə verilən tapşırıqların bu istiqamətdə yerinə yetirilməsinə komandir heyəti nəzarət edir.

Mühafizə bəzilərinə asan gəlir. Ancaq belə deyil. Burda ən önəmlisi etibar olunanı etibarlı qorumaqdır. Deməli, bu işə yanaşma eləcə də vicdan, məsuliyyət məsələsidir. Onlar mühafizə etməklə yanaşı, bəzən canını ortaya qoyub qorxmadan cinayətkarın da üstünə gedir, ən çətin tapşırığın öhdəsindən layiqincə gəlməyə çalışırlar. Amma bunsuz da nə uğur olur, nə də birincilik.

*Hafiz Təmirov,*
*polis mayoru*

# GÜCLƏRİNİ SINADILAR

**Yanvarın 21-dən 23-dək daxili işlər orqanlarının əməkdaşları arasında silahsız özünümüdafiə üzrə çempionat keçirilib.**

Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində gerçəkləşən bu tədbirin açılış mərasimində çıxış edən Olimpiya, dünya və Avropa çempionu, İdman Cəmiyyətinin sədri, polis polkovniki Zemfira Meftaxetdinova yarış iştirakçılarını və qonaqları salamlayıb, idmançılara uğurlar arzulayıb. Şəxsi heyətin fiziki hazırlığının daha da artırılması, silahsız özünümüdafiə fənlərinə daha yaxşı yiyələnmələri məqsədi ilə keçirilən bu yarışın əhəmiyyətini nəzərə çatdırıb.

O, Azərbaycanın dünyada güclü idman ölkəsi kimi tanıdılmasında beynəlxalq miqyasda uğurlar qazanan daxili işlər orqanları əməkdaşlarının da əməyini qeyd edərək, 2018-ci ilin idman yekunlarına həsr olunan tədbirdə möhtərəm dövlət başçımız tərəfindən mükafatlandırılanlar arasında əməkdaşlarımızın və yetirmələrimizin olmasını da diqqətə çatdırıb, qiymətli hədiyyələrin polis idmançılarının əməyinə verilən layiqli qiymət kimi dəyərləndirib.



Yarışda Bakı şəhəri ilə yanaşı respublikanın Gəncə və Sumqayıt şəhər, rayon Polis Baş İdarə, İdarə və Şöbələrinin, Daxili Qoşunların Baş İdarəsinin, nizami hissə və tədris müəssisələrinin əməkdaşları öz bacarıqlarını nümayiş etdiriblər.

On bir komandadan 90-a yaxın əməkdaşın iştirak etdiyi bu yarışda ilk üçlükdə Əlahiddə Çevik Polis Alayı, Daxili Qoşunların Baş İdarəsi və Sumqayıt Şəhər Polis İdarəsinin komandaları qərarlaşıblar.

Yarışların idarə olunmasında polis polkovnik-leytenantları Elnur Həsənov, Oruc Munirov, Mahir Əhmədov, Seymur Qurbanbəyov, polis mayoru Zaur Məcidov, polis kapitanları Aydın Həşimov, Dəyanət Ağayev, əməkdar məşqçilər Hikmət Hacıyev və Rəsul Məmmədov iştirak ediblər.

Mükafatlandırma mərasimində çıxış edən İdmanın təşkili bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov əməkdaşların hazırlıq səviyyəsinin yüksək olmasını, polis idmançılarımızın ildən-ilə təcrübələrinin artdığını diqqətə çatdırıb. M.Xıdırov bildirib ki, paytaxtımızla yanaşı bölgələrdə ərazi polis orqanlarının şəxsi heyəti ilə aparılan fiziki hazırlıq məşğələlərinin səmərəliliyinin artırılması, əməkdaşların silahsız özünümüdafiə fəndlərinə daha yaxşı yiyələnmələri üçün müvafiq tapşırıqlar verilir.

***Zeyni Hüseynov, polis serjantı***

## DAXİLİ İŞLƏR NAZİRLİYİ SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

İnstagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFIn-vwFvkLMCMGyg2j-w/featured

# QORXMAZ...

**Hər bir xalqın parlaq gələcəyi üçün onun, sözün bütün mənalarında, sağlam gəncliyinin olması vacib şərtdir. Ölkəmizdə gənclər siyasəti, bu sahədə görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan verir, onu daha da irəliyə aparır.**

Bu uğurlu siyasət daxili işlər orqanlarından da yan keçməyib. Polis Akademiyasının, Daxili Qoşunların Ali Hərbi Məktəbinin və A.N.Heydərov adına Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəbinin kursantları təhsillərini bitirdikdən sonra vətənə, dövlətə sədaqətlə xidmət edir, peşə andlarına sadiqlik nümayiş etdirirlər. Onlar təkcə cinayətkarlıqla mübarizədə, ictimai asayişin qorunmasında deyil, cəmiyyətin bir çox sahələrində uğurlar qazanır, möhtəşəm idman arenalarında bayrağımızı yüksəklərə qaldırırlar.

Sevindirici haldır ki, belə gənclərə DİN-nin bütün strukturlarında rast gəlmək mümkündür. Onlardan daha biri ilə Bərdə RPŞ-nin rəisi, polis polkovniki İlqar Məmmədovla söhbətimizdən sonra tanış olmaq imkanı qazandıq.

**CAB-nin əməliyyat müvəkkili, polis leytenantı Qorxmaz Babaşzadə** 1995-ci ildə elə Bərdədə doğulub. Məktəbi bitirdikdən sonra qəbul imtahanlarından 620 bal toplayaraq, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olub. Daha sonra əsgəri borcunu verib.



Polis olmaq arzusunu valideynlərinə bildirəndə sanki bunu çoxdandı gözləyirmişlər. Çünki bu çətin olduğu qədər də şərəfli peşə onların ailəsinə yad deyildi. Atası Ağakişi İsmayılov uzun illər daxili işlər orqanlarında xidmət etmişdi. Oğlunun bu peşədə davamçısı olmaq arzusu onu sevindirsə də, gələcəkdə xidmət yollarında bütün çətinliklərə necə sinə gələcəyi əndişəsi narahatlığına səbəb olurdu. Lakin Qorxmaz fikrində qəti idi. Elə bu istəklə də 2017-ci ildə sıralarımıza qoşuldu.

Səliqə-səhmanlı, idmançı cüssəli bu polis zabiti kollektivdə işlədiyi elə də uzun vaxt olmasa da şəxsi heyət arasında böyük hörmət qazanıb. Əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Zaur Nəsirov da onun barəsində xoş sözlər dedi: "Qorxmaz vəzifə borcunu layiqincə, verilən tapşırıqları isə vaxtında və qüsursuz yerinə yetirir. Onu bir çox həmyaşıdlarından fərqləndirən əsas cəhət də budur-qorxmaz olması".

***Çingiz Şıxverdiyev, polis polkovnik-leytenantı***

# MAARİFLƏNMƏLİYİK!

***"Yol hərəkəti qaydaları"na kiçikdən-böyüyə hər kəs riayət etməlidir. "Bu fikri son vaxtlar tez-tez eşidirik. Səbəb isə baş verən yol qəzalardır. Bu qəzalarda həyatını itirənlərin içində uşaqların da sayı az deyil. Təəssüflər osun ki, sözügedən mövzuda kifayət qədər maarifləndirmə tədbirləri həyata keçirilsə də, təbliğat aparılsa da "maşınlar insanları yeyir".***

"Nə etməli" sualını hər gün bir-birimizə versək də sanki adidən çox adi olan cavabını: "Diqqətli olaq, sürət həddini aşmayaq, piyada keçidindən istifadə edək" və daha nələri görməzlikdən gəlirik.




"Yol hərəkəti qaydaları" uşaqlar üçün məlumat kitabını həm də böyüklərin oxuması məsləhətdir. Baxçada, məktəbdə yol hərəkəti təhlükəsizliyi ilə bağlı öyrəndiklərini valideyninə xatırladan uşaqları "əşi uşaqdır deyib" keçməyimizin azmı faciəsini yaşamışıq. "Ata, təhlükəsizlik kəmərini bağla, müəllimimiz deyir ki, sükan arxasında sürət həddini aşmayın" deyən, həm özünün, həm də böyüklərinin həyatını düşünən fidanları dinləməklə onları gələcəyə şəxsiyyət kimi hazırlamış olmuruqmu?

Əziz böyüklər, bu kitabı balalarımızın sağlam, savadlı, təhlükəsiz hərəkət iştirakçısı kimi yollarda xəsarət almaması üçün biz onlardan əvvəl oxumalıyıq. Onlara yol hərəkətini biz öyrətməliyik. Bu kitab balaların kitabıdır. Gələcək faciələrin qarşısını almaq üçün "Hyundai" avtomobillərinin rəsmi distribüteri olan "Auto Azərbaycan" şirkəti və Bakı Şəhər DYPİ ilə hazırladığı kitabça həm özümüzün, həm də uşaqlarımızın stolüstü kitabı olmalıdır. Çünki burada bizi "bezdirən" uşaqlarımızın yol hərəkəti ilə bağlı hər bir sualına cavab var.

***Hafiz Təmirov, polis mayoru***

Ukraynada son 2,5 ildə korrupsiya faktlarına görə 2637 məmur haqqında məhkəmə hökmü çıxarılıb. Bunu müsahibəsində Ukraynanın baş prokuroru Yuri Lutsenko söyləyib. Onun sözlərinə görə, korrupsiya hallarından 3 milyard dollar büdcəyə qaytarılıb. Bundan başqa 10 min hektarlarla torpaq və mülkiyyət geri alınıb.

Baş prokuror bildirib ki, korrupsiya hallarına qarşı mübarizə daha da sərtləşdiriləcək.

*****

***Avropada irimiqyaslı əməliyyat çərçivəsində transmilli mafiya dəstəsinin üzvü olduğu ehtimal edilən 90 nəfər tutulub. Onlar, əsasən, narkotik maddələrin satışında, zorakılıq və dələduzluqda ittiham edilirlər. Almaniya, Niderland, Belçika, İtaliyanın hüquq-mühafizə orqanları, həmçinin onların Latın Amerikası ölkələrindən olan həmkarları birgə təqib və təhqiqat aparıblar.***

***Zərbə endirilən mafiya Avropa İttifaqında ən güclü cinayətkar təşkilat hesab edilir. Bu təşkilat narkotik maddələrin, xüsusən də kokainin satışına nəzarəti həyata keçirir, həmçinin Cənubi Amerikadan Avropaya tədarük kanallarını təmin edir.***

*****

İranın Buşehr şəhərində polis narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olan dəstəni zərərsizləşdirib. Əməliyyat nəticəsində gəmi ilə ölkə ərazisinə bir tondan çox narkotik vasitənin keçirilməsinin qarşısı alınıb. Müsadirə edilən narkotik vasitələrin 640 kiloqramı tiryək, 120 kiloqramı həşiş, 300 kiloqramı isə heroindən ibarətdir.

Narkotiklər qadınların baş örtüyü üçün nəzərdə tutulmuş bağlamaya yerləşdirilib ki, şübhə oyatmasın. Lakin polis aldığı operativ məlumat əsasında narkotikləri aşkar edib.

*****

***Türkiyənin Ərzurum şəhərində bu ölkənin narkotik qaçaqmalçılığı ilə mübarizə tarixində indiyədək görülməmiş miqdarda heroin müsadirə edilib.***

***Ümumi çəkisi 1 ton 535 kiloqram olan heroin ağırtonnajlı yük avtomobilindəki mərmər lövhələrin arasında gizlədilib. Bildirilib ki, bu, ölkədə narkotiklərlə mübarizə tarixində həyata keçirilən ən böyük əməliyyatdır. Avtomobilin sürücüsünün İstanbuldakı narkotik şəbəkəsi ilə əlaqəli olduğu da müəyyən olunub.***




***Türkiyə polisinin məlumatına görə, ötən il keçirilmiş bir neçə əməliyyat nəticəsində 17,3 ton heroin müsadirə edilib, 1500 nəfər şübhəli həbs olunub.***

*****

İran polisi dəmiryolu maşınları ilə təmin edilib. Dəmir yolu polisinin rəisi, polkovnik Hişmətullah Məliki Tehran deyib ki, maşın hər cür vasitələrlə təchiz olunub: "Bu maşın dəmir yolu polisinin reyd vasitələrinə əlavə olunacaq və dəmir yolu xətlərinin təhlükəsizliyi qorunacaq".

Bundan əlavə, Məliki qeyd edib ki, İranda 13 min kilometrlik dəmir yolu xətlərinə nəzarət etmək üçün dron və digər vasitələrdən istifadə ediləcək.

***C.Natiq***

# Yanvarın23-dən 29-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 149 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 69 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 106 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 3 nəfər, borclu şəxs qismində axtarışda olan 38 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 22 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 10 nəfər ölmüş, 47 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 74 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 199 nəfər saxlanılmışdır.

Daxili İşlər Nazirliyinin rəhbərliyi Cəbrayıl RPŞ-nin rəisi Araz Şahverdiyevə, anası
**GÜLƏBƏTİN xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Baş Təşkilat-İnspeksiya İdarəsinin rəis müavini Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayev və şəxsi heyəti Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Tibb İdarəsinin rəisi Mahmud Yusifov və şəxsi heyəti Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN A. N. Heydərov adına Respublika Hospitalının rəisi İsbi Babaxanov və şəxsi heyəti Elman Qasımova anası
**SOLMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Adil Həsənov və Fazil İbrahimov Gəncə ŞBPİ-nin əməkdaşı Əjdər İsgəndərova əmisi
**ŞAHMAR kişinin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan ŞPŞ-nin rəisi Hikmət Quliyev və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qəbələ RPŞ-nin rəisi Nadir Məmmədov və şəxsi heyəti Qazax RPŞ-nin rəisi Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Astara RPŞ-nin rəisi Azər Cahangirov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Siyəzən RPŞ-nin rəisi Valik Vəlimətov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala RPŞ-nin rəisi Vüsal Şəbəndiyev və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Elçin Qasımov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ucar RPŞ-nin rəisi Eldar Paşayev və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı RPŞ-nin rəisi Cümşüd İsmayılov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Hacıqabul RPŞ-nin rəisi Məmməd Hüseynov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kürdəmir RPŞ-nin rəisi Sultan Zeynalov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Füzuli RPŞ-nin rəisi Xəqani Məmmədov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xocavənd RPŞ-nin rəisi Yadigar Hüseynov və şəxsi heyəti Ədalət Əliyevə anası
**ZEYNƏB xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**


MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.


Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.


Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.714
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00